I BAKI TÜRKOLOJİ QURULTAYI VƏ DÜŞÜNCƏ MƏDƏNİYYƏTİ

İsmayıl Kazımov
AMEA Nəsimi adına Dilçilik İnstitutunun
Türk dilləri şöbəsinin müdiri,
filologiya elmləri doktoru, professor
https://orcid.org/0009-0001-4252-7295
email: prof.ismayil.kazimov@gmail.com
Tel: +99450 3756559

Xülasə

Birinci Türkoloji Qurultay bütün türk xalqlarının həyatında və taleyində əlamətdar hadisə kimi uzun illərdir yaddaşlarda qılıb. Türklər üçün ümumi ədəbi dil yaratmağın özü böyük elm, mədəniyyət və təhsil hadisəsidir. Düşüncə mədəniyyəti insanlığa vacib olan bu kimi keyfiyyətlərin (əlifba yaratmaq, ümumi ədəbi dili formalaşdırmaq və s.) başlıca göstəricilərdəndir.

Bildiridə qurultayda bu və ya digər istiqamətdə məruzə edənlərlə sonrakı dövrlərdə həmin məsələlərə münasibət bildirənlərin düşüncəsi fonunda mədəniyyət faktoru çözülür. Qeyd olunur ki, qurultayın qərar və qətnamələri bu gün bir mədəniyyət mirasdır, bu, gələcək nəsillərə ötürülən strukturlaşmış inteqrasiyadır. Bu miras keçmişdə görülən işlərə, türkün xeyri üçün atılan faydalı addımlara, bu haqda yayılan əsərlərə düşüncənin məhsulu kimi yanaşır və ona yanaşan başqa düşüncəni onunla bölüşür, müqayisə edir. Bu mövzuda düşüncə mədəniyyəti bir mühün konsepsiyadır. Həmin düşüncə geniş anlayış olub Türkoloji qurultay kimi möhtəşəm varlığın və hadisənin dərk olunmasınının bütün formalarını özündə cəmləşdirən mexanizm kimi öz təzahürünü (ifadəsini) dildə tapır.

Düşüncədə sözügedən qurultayın keçirilməsinin əsas məqsədi Moskvanın düşmənçilik niyyətini_ (nümayəndələr xəbərsiz idi!) türklərin bir-biri ilə ünsiyyətini kəsmək, onların öz qədim, dolğun tarixilərindən ayırmaq, məlumatsızlaşdırmaq, öz tarixi əlifbaları və ədəbi dilindən istifadə etməyin qarşısını almaq istəyi olmuşdur. Ona görə ki, əlifba yaratmaq mədəniyyət faktıdır və ədəbi dilin mövcud olması deməkdir.

Bildiridə o da göstərilir ki, cəmiyyətin düşüncə mədəniyyəti onun ana dilinə (türk xalqlarının dili, tarixi, etnoqrafiyası, əlifba və orfoqrafiyası, yazı, imla və s. məsələlər, ədəbi dilinə, terminologiyasına, ədəbi dillərin inkişaf istiqamətləri, qohum dillər və s.) olan münasibəti ilə təyin olunur, ana dilinin səviyyəsi və durumu isə millətin (sosiumun) inkişaf səviyyəsini müəyyənləşdirir.

Açar sözlər: I Türkoloji Qurultay, düşüncə mədəniyyəti, dil islahatı, Turan düşüncəsi, elmi rasionalizm

The First Baku Turkological Congress and the Culture of Thought

Abstract

The First Turkological Congress has long been remembered as a landmark event in the life and destiny of all Turkic peoples. The very endeavor to create a common literary language for the Turks represents a major scientific, cultural, and educational achievement. The culture of thought is one of the principal indicators of such qualities essential to humanity as the creation of an alphabet and the formation of a unified literary language.

This paper examines the cultural dimension through the intellectual perspectives of those who delivered papers at the Congress in various fields, as well as of scholars who later reflected on these issues. It is emphasized that the decisions and resolutions of the Congress today constitute a cultural heritage—a structured form of integration transmitted to future generations.

This heritage approaches the work accomplished in the past, the constructive steps taken for the benefit of the Turkic peoples, and the scholarly works produced on these matters as outcomes of intellectual activity; it shares, compares, and engages with other modes of thought that address them. Within this context, the culture of thought emerges as a key conceptual framework.

The notion of thought addressed here is broad in scope and manifests itself in language as a mechanism that encompasses all forms of comprehension of such a monumental entity and event as the Turkological Congress. From this perspective, it is argued that the primary purpose behind convening the Congress was Moscow's hostile intent—unknown to the delegates—to sever communication among the Turkic peoples, detach them from their ancient and rich historical heritage, render them uninformed, and prevent the use of their historical alphabets and literary languages. This is because the creation of an alphabet constitutes a cultural fact and signifies the existence of a literary language.

The paper further argues that a society's culture of thought is determined by its attitude toward the mother tongue—namely, the language of the Turkic peoples, their history, ethnography, alphabet and orthography, writing and spelling, literary language and terminology, directions of literary language development, and related languages. In turn, the level and condition of the mother tongue determine the level of development of the nation (society).

Keywords: First Turkological Congress, culture of thought, language reform, Turan thought, scientific rationalism

Mədəniyyət sosial varlığın ictimai və mənəvi cəhətdən qazandığı nailiyyətlərin cəmidir. Düşüncə mədəniyyəti isə ruhi mədəniyyət-mənəvi mədəniyyətdir. Cəmiyyətin, toplumun, ayrıca şəxsiyyətin əldə etdiyi uğurlar, inkişafın ən yüksək səviyyəsi, bilik, təcrübə, hər hansı ən mühüm aktual məsələlər haqqında ali fikir, həyat təcrübəsidir.

Birinci Türkoloji Qurultay düşüncə mədəniyyətinin başlanğıcı oldu. Bu qurultayın missiyası türk xalqlarının intellektual dönüş nöqtəsidir.

Birinci Türkoloji Qurultay türk xalqlarının elmi-intellektual tarixində böyük rol oynadı. Səmədağa Ağamalıoğlu bu tarixi hadisənin əhəmiyyətini xüsusi olaraq göstərdi. (1, s.36). Bu Qurultay təkcə elmi toplantı, dil müzakirəsi deyil, həm də Türk dünyasının düşüncə mədəniyyətinin formalaşmasında yeni mərhələnin başlanğıcı oldu. Türklər üçün ortaq ədəbi dil yaratmaq ideyası, əlifba islahatı, imla və terminoloji sistemin unifikasiyası kimi məsələlərin gündəmə gətirilməsi təkcə dilçilik aktı deyil, eyni zamanda, mədəni-ideoloji intibahın təzahürü idi. (Qacarlı, 2007, s.3) Türk xalqları ilk dəfə bu məsələləri elmi platformada müzakirə etdilər. Bu, milli şüurun sistemləşməsi prosesinin başlanğıcı idi.

Düşüncədə yeni Azərbaycan əlifbası, orfoqrafiyası, terminologiyası, ədəbi dili uğrunda mübarizə başlıca yerlərdən birini tuturdu. Bəkir Çobanzadənin çıxışlarında deyilirdi ki,"bizə bir-birinə yaxın dildə danışan türk-tatar xalqlarının kəndi ətarfına toplayıb elm və mədəniyyət yolu ilə sürətlə irəliləyəcək bir əlifba lazımdır». Yeni əlifba haqqında düşüncəmiz nədir sualına Bəkir Çobanzadə "Yeni yol" qəzetində belə cavab vermişdir: -"Türklər, məlum olduğu üzrə indiyə qədər 13 əlifba kullanmışlar. (istifadə etmişlər) və bunların heç birisi türk dilinin təbiət və üzviyyətinə uyğun olmamışdır. Bunlardan ən fənasını ərəb əlifbası saymaq mümkündür. Ərəb əlifbası yalnız ərəb və farsca yazmağa alışan ziyalıların əlifbasıdır ki, bu gün təmiz və xalq türkcəsilə yazmaq istəyən adamlarının işinə gəlməz" .

Qeyd edək ki, Moskva şəhərində 1925-ci il 15 sentyabrda keçirilən iclasda (Səmədağa Ağamalı oğlunun sədrliyi altında) yeni əlifbaya keçməkdən ötrü I Türkoloji qurultayın çağırılması vacib bilindi və bu SSRİ Şərqşünasları elmi cəmiyyəti ilə Azərbaycan tədqiq tətəbbö cəmiyyətinə həvalə edildi. Bu iki elmi idarə geniş fəaliyyətləri ilə ümumittifaq miqyasında nüfuz sahibi idilər. Həmin məsələ haqqında B.Çobanzadə yazırdı: "Gənc Azərbaycan qoca Şərqin intəhasız qaranlıqları içərisində başqalarının mədəniyyəti üçün nümunə ölkəsi olmağı qəti olaraq qət etmişdir. Bu respublikanın elm və texnika sahəsindəki görkəmli müvəffəqiyyətlərini bilərək

hər kəs qurultayın keçirilməsi üçün yer- Azərbaycanın paytaxtı Bakının seçilməsinə qarşı etiraz etmədi. (Чобанзаде, 1926 , с. 102.)

Öncə etnoqrafik xüsusiyyətlər düşüncə də özünə yer alır. S.Rudenkonun, Y.Messaroşa və Q.Çursiranın məruzələrdə türk etnoslarının, Anadolu və Balkan türklərinin eləcə də Qafqaz türklərinin etnoqrafik mədəniyyəti təhlil olunur. Türklərin fiziki, antropoloji tipi, onların köç həyatı, təsərrüfatı, məşğuliyyət sahələri, mənəvi sərvətləri, etnik mənsubiyyət, paleoetnik materialları, antropometrik faktları və s.şərh olunur. Bu məruzələr ətrafında düşünərkən Azərbaycan türkünün də bu etnoqrafik qaynaqların mövcudluğunda önəmli rolu görünür. Həm də bunlar müştərək yaradıcılıqdır. Bütün türkün payı var. Amma tarixi zərurət kimi türk etnoslarının bu dəyərləri arasında fərqlər də yaranmışdır. Fərqlər daha çox dialektlərə ayrılmada müşahidə olunur. N.Cəfərov həmin prosesin bir neçə amillə əlaqədar olduğunu qeyd edir: 1) Türk dillərinin ayrı-ayrı dialektlərə (nəticə etibarilə dillərə) bölünməsi üçün daxili meyli; 2) coğrafi ayrılma təcrid olunma; 3) ictimai-siyasi ayrılma, təcrid olunma (xsüsusilə, müxtəlif türk dövlətlərinin meydana gəlməsi (Cəfərov, 2002, s.112).Etnoloji xəzinə kimi məruzələrdə ortaq mədəniyyət xarakterizə olunur. Bu mədəniyyətə İslam dinin təsiri, ərəb dilinin nüfuzu qeyd olunur. Məhz o dövrdə Azərbaycan dilinin sadəliyi itir, mətnlər qəlizləşir. Ərəb-fars konstruksiyalarının hesabına "Zümrə ədəbi dili" meydana gəlir.

Əsas mahiyyət, dil vasitəsilə milli kimlik və mədəni özünüdərk idi. Düşüncə mədəniyyəti insanın və toplumun intellektual inkişafını şərtləndirən amillərin - dilin, yazının, təfəkkürün və mənəvi dəyərlərin harmonik əlaqəsində formalaşır. Bu mənada Birinci Türkoloji Qurultay məhz düşüncə mədəniyyətinin canlı, əyani göstəricisidir. Qurultayda əlifba yaratmaq, ümumi ədəbi dili formalaşdırmaq, dillərin qarşılıqlı təsirini öyrənmək kimi məsələlər türk xalqlarının gələcəyi naminə mədəni birləşmənin və intellektual sintezin nümunəsinə çevrilib.

Qurultayda çıxış edən alimlərin həm Azərbaycan, həm də digər türk xalqlarının nümayəndələrinin məruzələri bir millətin müxtəlif qollarını vahid ideya ətrafında toplamağa yönəlmişdi. Sonrakı dövrlərdə bu məruzələrin tədqiqi göstərir ki, həmin çıxışlar təkcə elmi fikir məhsulu deyil, həm də mədəniyyət fenomeni kimi qəbul edilməlidir.

Milli kimlik türk xalqlarının özünü digər xalqlardan seçməsinə şərait yaradan ortaq dəyərlər, tarix, dil, adət-ənənələr və kollektiv yaddaşdır. Mədəni özünüdərk isə şəxsin və cəmiyyətin öz köklərini, dəyər və rəmzlərini şüurlu olaraq qavrama gedişatıdır. Həmin proses tarixə tənqidi baxış, mədəni irsin qorunması və çağdaş dünyada həmin irsin nə cür formalaşdırılmasının anlamasını əhatə edir. Həmin 2 anlayış bir-birilə sıx şəkildə əlaqədardır. Belə ki, mədəni özünüdərk olmadan milli kimlik bəsitləşir; milli kimlik isə mədəni özünüdərkdən ötrü çərçivə əmələ gətirir. Qloballaşma şəraitində hər ikisi milli-mənəvi dəyərlərin qorunması və inkişafı cəhətindən xüsusi önəm kəsb edir.(Kazımov, 2006, s.32-41)

Hər bir nitqdə elmi və milli məsuliyyət, cavabdehlik var. Mən onları oxuyanda hiss edirəm ki, alimlər yalnız fakt təqdim etmir, həm də bir mənəvi borclarını yerinə yetirirlər. Hər fikir həm nəzəri, həm də mədəni missiya daşıyır. Bu, sırf akademik debat deyildi, dilin, təfəkkürün və kimliyin müdafiəsi proqramı idi.(Məlikli, 2023, s.249)

Mədəniyyət mirası həyati proseslərlə müvazi insanın qarşıya qoyduğu məqsədə doğru getdiyi yol və bu yolda əldə etdiyi yüksək göstəricidir. Həmin proses bütün uğuru işgüzar fəaliyyətlərin dərk edilməsini, istiqamətlənməsini və qorunmasını təmin edir. Tədricən insani münasibətlərə və onların dəyərlərinə aydınlıq gətirilir, mədəniyyət müxtəlif düşüncə sahibi olan insanların bir yerdə yaşaması, işgüzar ünsiyyət qurmasıdır-bu gücə yalnız mədəniyyət malikdir. (Məmmədli,2021, s.294).

Mədəni missiya türk dövlətlərinin, türk xalqlarının, etnosun, sözünün öz mədəni-dəyərlərini qoruyub saxlamaq, inkişaf etdirmək və sonrakı nəsillərə ötürmək məqsədi kəsb edir. Qurultayda milli-mənəvi missiyanın dəyərlərinin dil, folklor, incəsənət və adət-ənənədən ibarət olduğu vurğulanır. Bununla yanaşı, digər xalqların mədəniyyətlərinə qarşılıqlı kömək və dialoqlaşma amili də vacib bilinmişdi.

Qurultayın qərarlarını mədəniyyət mirası kimi dəyərləndirmək olar və tarixi sənəd kimi yox, mədəni kod kimi oxumaq vacibdir. Terminologiyanın unifikasiyası, ortaq yazı prinsipləri, dil əlaqələrinin tədqiqi bu gün də Türk dünyasının qarşısında dayanan prioritetlərdir. Qlobal dünyada kimliyini itirmədən inteqrasiya etmək üçün həmin qərarlar aktuallığını saxlayır. Qurultay bir növ metodoloji xəritədir.

Düşüncə mədəniyyəti bu baxımdan yalnız fərdi intellektin göstəricisi deyil, millətin özünü dərketmə səviyyəsidir. Türkoloji Qurultay kimi möhtəşəm hadisələr bu dərk prosesini dildə, yazıda, fikir mübadiləsində və ümumtürk birliyində təcəssüm etdirir. Əlbəttə, həmin dövrün siyasi fonunu nəzərə almamaq mümkün deyil. Moskvanın məqsədi türk xalqlarını nəzarətdə saxlamaq, onların bir-biri ilə ünsiyyətini zəiflətmək, ortaq tarix və mədəni yaddaşını sındırmaq, əlifba və yazı sistemləri vasitəsilə milli identikliyini dəyişmək idi. Əlifba məsələsinə icazə verilməsi strateji alət idi. Yazı sistemi dəyişdikcə kollektiv yaddaşın təbəqələri də dəyişir. Lakin paradoks ondadır ki, sovet ideoloji çərçivəsi daxilində başlayan bu müzakirə milli oyanış enerjisi yaratdı. Tarix bəzən planları öz xeyrinə çevirir.

Əlifba bizim üçün yalnız qrafik sistem deyil, həm də konseptual təfəkkür infrastrukturudur. Əlifba yaratmaq ümumi ədəbi dil formalaşdırmaq və yazılı ədəbi ənənəni qorumaqdır. Hər bir xalqın yazı sistemində onun dünyagörüşü, tarixə münasibəti və mənəvi dəyərləri əks olunur. Hər xətt, hər işarə bir mədəni kod daşıyır. Yazı yalnız texniki vasitə olsa idi, bu qədər siyasi və ideoloji mübarizə onun ətrafında qurulmazdı. Ona görə də əlifba dəyişikliyi yalnız texniki məsələ deyil, həm də düşüncə məkanının yenidən qurulması deməkdir. Demək, türk etnosları arasında ən çox düşünülən, ən qlobal problemlərdən biri əlifba məsələsi idi. Əlifbanın tez-tez dəyişməsini, milli iqtisadi, mənəvi və psixi itki hesab etməmək mümkün deyil. (Hüseynov, 2001, s.17). 100 ildə 4 dəfə əlifba dəyişmək –bu nə deməkdir.1920-ci ildən bəri dilimiz enişli-yoxuşlu yol keçib. Əlifbamız yerli-yersiz dəyişdirilib. Digər ictimai hadisələr kimi dil də cəmiyyətlə sıx bağlıdır. Qurultayda düşünüldüyü kimi, kiril əlifbasını qəbul etməyi (1930-cu illər) bütün "sovet xalqlarının mənəvi birliyi" irəli sürürdü. Bu artıq imperiyanın dövlət siyasəti ilə bağlı idi. Hərçənd birlik sözdə idi. İşdə isə hər türk ölkəsinin öz kirilinə rəvac verilirdi. (Axundov, 2003, s.395). Ana dili dəyərlərin daşıyıcı matrisi və kollektiv təfəkkür sistemidir. Cəmiyyətin intellektual səviyyəsini onun dilinə olan münasibət müəyyənləşdirir. Qurultayda dilin normalaşdırılması, imlanın sabitləşdirilməsi, terminologiyanın sistemləşdirilməsi məhz bu düşüncənin nəticəsi idi. Türk xalqları üçün dil milli davamlılıq təminatıdır.

Birinci Türkoloji Qurultay türk dilinin elmi əsasda özünütəşkil anıdır. Bu hadisə milli kimliyin dil üzərində konseptual möhkəmlənməsi prosesinin başlanğıcıdır və bu gün də düşüncə mədəniyyətimizin strateji sütunudur. T.Hacıyevin düşüncəsi: "Türkiyə türkcəsi türkcələr içərisində ən zənginlərindən, qrammatik quruluşa ən kamillərindən biridir. Bu dil rəsmi üslubuna görə başqa türkcələrdən heç birilə müqayisəyə gəlməyəcək dərəcədə yüksək inkişaf səviyyəsindədir. (Hacıyev, 2013, s.134-135)

Qurultayda səslənmiş fikirlər və qəbul edilmiş qərarlar bu gün üçün aktual olan düşüncə mədəniyyəti konsepsiyasının başlanğıcını təşkil edir. Bu konsepsiya dilin, mədəniyyətin, tarixin və milli şüurun bir-biri ilə üzvi bağlılığını təsdiqləyir. Məhz bu baxımdan Birinci Türkoloji Qurultay həm elmi, həm də fəlsəfi-mədəni hadisə kimi türk xalqlarının ortaq yaddaşında yaşayır və gələcək nəsillər üçün fikrin, dilin və kimliyin birliyi ideyasını simvollaşdırır.

Belə düşünülürdü ki, qurultaya kimi dil və əlifba məsələlərinə aid xeyli sayda yazılar çap etdirməklə I Bakı Türkoloji qurultayın həll etməli olduğu məsələləri yoluna qoymaq olar.

Hər bir çıxış və məruzədə "mən belə düşünürəm"- söyləmi ucadan səslənir, Birinci Türkoloji Qurultayın missiyasını əks etdirir:

1. Türk xalqlarının elmi birliyini formalaşdırmaq. Bütövlükdə türkologiya elmi, mədəniyyəti ilə məşğul olan alimləri bir yerə toplamaq və onların düşüncəsi əsasında ortaq, vahid elmi platforma yaratmaq.

2. Türk dillərinin araşdırılmasını və inkişafını gücləndirmək. Linqvistik məsələ və problemləri ağıllı düşüncələrlə müzakirə etmə, müqayisəli tədqiqatları təşviq etmək;

3. Əlifba islahatı;

4. Elmi terminologiyanın vahidləşdirilməsi. Türk dillərində elmi terminlərin unifikasiyası (uyğunlaşdırılması) və sistemə salınması;

5. Milli mədəni özünüdərkin möhkəmləndirilməsi. Türk xalqlarının mədəni irsinin qorunması və inkişafı.

6. Maarifçilik və modernləşmə. Təhsil, media və elmin müasir əsaslar üzərində inkişafına dəstək vermək

Qurultayın missiyası türk dünyasında elmi əməkdaşlığı gücləndirmək, dil və mədəniyyət sahəsində modernləşməni təmin etmək idi.

Türk xalqlarının düşüncəsində qurultay mədəni həyat üçün möhtəşəm əhəmiyyətə malikdir. Türk xalqları mədəniyyətə öz doğma dillərində qoşulurlar. Xalqlar öz gələcəklərinə böyük ümidlə baxırlar. Düşüncələrdə Türkoloji Qurultay ideyası türk xalqlarının həyatı tərəfindən irəli sürülür.

Qurultayda türk dillərinin tədqiqi və bu dillərin başqa dil ailələri ilə bağlılığı haqqında düşüncələr də mühüm yerlərdən birini tutur.

Canlı və ədəbi türk dilləri və dialektlərinin tədqiqi barədə çıxış və məruzələri dinləyən I Türkoloji Qurultay aşağıdakıları yaxın gələcək üçün mühüm vəzifələr hesab edir:

1. Dil materiallarının toplanması və çap ayrı-ayrı elmi qrammatikalar və lüğətlərin tərtibi yolu ilə ayrı-ayrı dillər ləhcə və şivələrin dərindən, hərtərəfli araşdırılması.

2. Müqayisəli-tarixi qrammatika, müqayisələr etimoloji lüğət və türk dil və dialektlərinin təsnifi üzrə hazırlıq işləri.

3. Türkologiyaya dair biblioqrafiyanın tərtibi.

4. Türk dillərinin digər Altay və uqro-fin dillərinə münasibətinin yafəs nəzəriyyəsinin nailiyyətləri nəzərə alınmaqla davam etdirilməsi.

5. Beynəlxalq miqyasda türkoloji işin müəyyən plan əsasında kollektiv iş əsasında və çap işi təmin edilməklə təşkili.

Beləliklə, I Türkoloji qurultaydan keçən uzun bir dövr ərzində Türkologiya elmi xeyli irəliləmiş, bu uğurlar əsasında, hətta, bir-birindən fikir-düşüncə, ən çox da psixoloji durumuna görə əsrlər uzunu bir-birindən ayrı düşmüş türk xalqları arasında Türk, Turan düçüncəsi güclənmişdir.

Qurultayda qoyulan məsələlər nə qədər böyük, dərin olsalar da, çox düşündürücüdür. Şübhəsiz, bütün bunlar bir yerdə türkçülük düçüncəsinə, türk dünyasının birliyinə xidmət edən məsələlərdir.

I Türkoloji Qurultay türk xalqlarının elmi-intellektual tarixində başlıca mərhələdir. Qurultayda yaranan düşüncə mədəniyyətini aşağıdakı kimi xarakterizə etmək olar:

1. Obyektivlik və elmi rasionalizm. İştirakçılar yalnız elmi yanaşma nümayiş etdirirdilər. Mübahisələr sübutlara , müqayisəli təhlilə və elmi-nəzəri metodlara əsaslanırdı.

2. Dil islatahı və çağdaş düşüncə. Əsas olaraq latın qrafikasına keçid düşüncə mədəniyyətinin mərkəzini təşkil edirdi. Bu rasional baxış idi.

3. Açıq dialoq və ümumtürk həmrəyliyi. Burada elmi dialoq mədəniyyət formalaşırdı. Düşüncə ayrılığı olsa da, müzakirələrdə qarşılıqlı hörmət və ümumi məqsəd – türkoloji elmin təkamülü- bu, əsas prinsip sayılırdı.

4. Milli kimlik və mədəni özünüdərk. Humanitar, filoloji elmlərə sistemli baxış milli kimliyi səciyyələndirirdi.

5. Gələcəyə istiqamətlənən strateji yanaşma. Türkoloji elminin gələcək istiqamətlərində müəyyənləşdirildi.

Nəticə olaraq:sözü gedən qurultayda yaranan fikir- düşüncə mədəniyyəti elmi rasionalizm, açıq dialoq, milli özünüdərk və müasirləşmə ideyalarının vəhdəti kimi özünü təsdiqlədi. Bu baxış türkoloji dilçilik elminin də sonrakı inkişafına güclü təkan göstərdi.

Ədəbiyyat

1. Axundov A. Dil və ədəbiyyat. (iki cilddə) II cild, Bakı, 2003
2. Bjulleten org. komissija po sozyvu I vsesojuznogo tjurkologicheskogo s`ezda. Baku, 1926
3. Cəfərov N.Q. Azərbaycanşünaslığa giriş. Bakı, 2002
4. Chobanzade B. Tjurkologicheskij s`ezd. Rezjume doklada chitannogo na zasedanij tjurkologicheskom sekcii ob-va. 20/h -1926 v sbornike izvestija obshhestva obsledovanija i izuchenija. Baku, ASSR, 1926, №1
5. Hacıyev T. Türklər üçün ortaq ünsiyyət dili. Bakı, "Təhsil" , 2013
6. Hüseynov A. Diqqəti artıraq- Birinci Beynəlxalq Türkoloji Qurultayın 75-ci ildönümünə həsr olunmuş elmi konfransın materialları(6-7 nart 2001-ci il), Bakı, 2001
7. Kamil Vəli Nərimanoğlu, Əliheydər Ağakişiyev. 1926-cı il I Türkoloji Qurultay. Stenoqram materialları."Çinar-Çap".
8. Kazımov İ. Milli kimlik və dil məsələləri-Filologiya məsələləri. Bakı, 2006
9. Qacarlı C. I Türkoloji qurultyada dil məsələləri. Filologiya elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş avtoreferat. Bakı, 2007
10. Məlikli T. Первый тюркологический съезд и проблемы развития литературного языка у тюрков – Türkbilimi (Türkoloji) yazılarımdan seçmələr. Bakı, 2023
11. Məmmədli N. Azərbaycan dilində işgüzar və akademik kommunikasya. Dərslik. Bakı, "Elm və təhsil", 2021
12. Pervyj Vsesojuznyj Tjurkologicheskij sezd. 26 fevralja -5 marta 1926 g. (Stenograficheskij otchet.Baku-FSSR 1926
13. Türk Dünyası El kitabı.(2-ci cilt.Edebiyyat) Ankara, 1992
14. Türk Dünyası El kitabı.(3-cü cilt.Edebiyyat) Ankara, 1992
15. "Yeni yol" qəzeti, 1924, 26 oktyabr №39